

# Şərəfli missiya

**Ölkə başçısı tərəfindən 2011-ci ilin "Turizm ili" elan edilməsi bölgələrimiz qarşısında bu sahənin daha da inkişaf etdirilməsi kimi həlli vacib vəzifələr qoymuşdur.**

**Bu mənada, respublikamızın dilbər güşələrindən olan İsmayıllının gerçəkləşdirəcəyi layihələr xüsusi önəm kəsb edir. Axı bu rayon cari ildə birdən-birə iki mühüm missiyanı daşımaq şərəfinə nail olub.**

Turizm zonası kimi burada çoxsaylı işlər görülməli, "Sənətkarlıq paytaxtı" tək rəngarəng tədbirlər həyata keçirilməlidir.

Artıq bu sahədə mühüm addımlar atılmışdır. İsmayıllı Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Azər Abbasov söhbətimizdə bu və ya digər məsələlərə aydınlıq gətirdi:

- Rayonumuzda yeni turizm və istirahət mərkəzlərinin tikilib istifadəyə verilməsi, bölgəyə daha çox xarici və yerli turistlərin cəlb olunması, yeni infrastrukturların yaradılması istiqamətində xeyli işlər görülmüşdür. Bölgəmizin əlverişli coğrafi mövqedə olması, iqlim şəraitinin landşaftının zənginliyi turizm sənayesinin inkişafı üçün zəmin yaradır, həm rayonumuza gələn turistlərin sayının artım dinamikasında, həm turizmin keyfiyyət və kəmiyyət baxımından inkişafında özünü göstərməkdədir.

Qeyd etməliyəm ki, 2010-cu ildə əvvəlki illərlə nisbətdə daha çox xarici və yerli turistlər rayonumuzda istirahət etmiş, rayonun füsunkar gözəlliyi ilə tanış olmuş, təbiəti, flora və faunası, mədəniyyətə, məişətə, qədim tarixə malik abidələrimizlə, Basqal və Lahıc Tarix və Mədəniyyət qoruqları ərazisində yerləşən xalq sənətkarlıq nümunələri ilə tanış olmuşlar.

Əgər 2009-cu ildə İsmayıllı rayonuna 15 min turist gəlmişdirsə, 2010-cu ildə bu rəqəm 25 mindən artıq olmuşdur. Bundan əlavə Lahıc qoruğuna 15 min, Basqal qoruğuna isə 10 mindən artıq yerli və xarici turist gəlirmiş ki, bu da həmin qoruqlarda işləyən işçilərin bir daha məsuliyyətlərini, hər bir turistə qarşı diqqəti artırmış, bölgənin tarixi, mədəniyyəti, məişəti barədə onlar üçün ekskursiyalar təşkil olunmuşdur.

**Rayon ərazisində 20 turizm istirahət mərkəzi fəaliyyət göstərir ki, həmin mərkəzlərdə 315 otaqdan ibarət 963 yerlik korpuslar və ya koteclər fəaliyyət göstərir.**

İsmayıllı istər keçən il Bakı şəhərində Heydər Əliyev adına İdman Konsert Kompleksində 24 ölkənin və respublikanın 15 rayonunun iştirakı ilə keçirilən I Ümumrespublika Daxili Turizm Sərgisində, istərsə də bu il Bakı Sərgi Mərkəzində gerçəkləşdirilən X Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər, habelə II Ümumrespublika Daxili Turizm sərgilərində fəal iştirak etmiş, bölgənin turizm potensialı, infrastrukturu, tarixi, mədəniyyəti, məişəti barədə geniş məlumatlar verilmiş, bukletlər paylanılmış, dekorativ tətbiqi sənət nümunələri sərgilənmişdir. Bunun nəticəsi olaraq rayonumuza xarici turistlərin marağı da xeyli artmışdır.

Respublika Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq edilmiş "2010-2014-cü illər üçün Azərbaycanın Xalq Yaradıcılıq paytaxtları Proqramları" çərçivəsində İsmayıllı rayonunun "Azərbaycanın Sənətkarlıq Paytaxtı" elan olunması rayon mədəniyyət və turizm şöbəsinin bu sahədəki məsuliyyətinin artırılması ilə yanaşı, il ərzində rayonumuza gələn qonaqların da sayının artmasına səbəb olacaqdır.

Fərəhli haldır ki, Respublika Prezidenti İlham Əliyevin tapşırığı ilə "2011-2014-cü illərdə Tarix və Mədəniyyət Qoruğunun inkişafı üzrə Dövlət Proqramı" hazırlanmışdır ki, bu da Respublikamızda vahid Turizm Mərkəzinin yaradılmasına gətirib çıxaracaqdır.



İsmayıllı rayonu və ismayıllılar üçün indi tarixi məqamdır. Xalqımızın böyük qəhrəmanlıq səhifələri ilə səciyyələnən bir tarixi vardır. Əsrlər boyu xalqımız öz milli-mənəvi dəyərlərini qoruyub saxlaya bilmiş və bugünkü firavan günlərə gətirib çıxarmışdır.

Sənətkarlar məskəni olan İsmayıllı şəhərinin "Azərbaycanın Sənətkarlıq Paytaxtı" elan olunması ilə bağlı il ərzində təntənəli mərasimlərin, respublika və beynəlxalq səviyyəli elmi-praktiki konfransların, dəyirmi masaların, konsertlərin, müsabiqələrin, festivalların, sərgilərin, yarmarkaların, infoturların və sair tədbirlərin təşkili nəzərdə tutulmuşdur. Artıq onların müəyyən qismi yüksək səviyyədə həyata keçirilmişdir.

İl boyu keçiriləcək tədbirlər nəinki İsmayıllı rayonunun, ümumilikdə Azərbaycanın qeyri-maddi mədəni irsinin dünyada tanıdılmasında da mühüm rol oynayacaq. Bu layihə Azərbaycanın çoxəsrlik mədəniyyətinin, qeyri-maddi mədəni irs nümunələrinin, sənətkarlığının, tarixinin qorunmasına xidmət edəcək.

Etiraf edim ki, İsmayıllı şəhərinin "Azərbaycanın Sənətkarlıq Paytaxtı" elan edilməsi bizi hədsiz dərəcədə sevindirir. Çünki həqiqətən İsmayıllı tarixi abidələrlə zəngin, sənətkarlıq nümunələri ilə şöhrət qazanmış rayonlardan biridir. Rayonun Lahıc və Basqal qəsəbələrində hələ çox qədim zamanlardan xalq sənətkarlığının inkişafı, milli üslubda tikinti işlərinin aparılması xalqımızın sənətkarlıq və memarlıq ənənələri haqqında canlı təsəvvür yaradır. Lahıc qəsəbəsində xalq sənətkarlığının inkişafına, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına xüsusi diqqət yetirilir. Turistlər üçün kiçik həcmli xalçalar və suvenirlər hazırlanır.

XX əsrdə Lahıcda 200 misgərlik emalatxanası fəaliyyət göstərmişdir. Ulu babalarımızdan miras qalmış xalçaçılıq, misgərlik və digər bir sıra sənət sahələri hal- hazıradək qorunub saxlanılır.

Rayonda azərbaycanlılarla yanaşı bir çox azsaylı xalqlar da yaşayır. Onların milli adət-ənənələrinin qorunub saxlanılması, folklor qruplarının fəaliyyətinin günün tələbləri səviyyəsinə qaldırılması istiqamətində tədbirlər görülür.

Bu baxımdan İsmayıllının "Azərbaycanın Sənətkarlıq Paytaxtı" elan edilməsi hər bir İsmayıllı sakinində fərəh və qürur hissi doğurur.



Buna görə də rayonun rəhbərliyinə bütün İsmayıllılar adından öz dərin minnətdarlığımızı bildiririk.

İsmayıllının bu şərəfli ada layiq görülməsi rayonda sənətkarlığın inkişafına təkan verməklə daxili və xarici turistlərin rayona axınının sürətlənməsinə təkan olacaqdır.

Təbii ki, İsmayıllının "Azərbaycanın Sənətkarlıq Paytaxtı" elan olunması üzərimizə böyük məsuliyyət qoyur. Artıq bununla əlaqədar rayon mədəniyyət və turizm şöbəsi tərəfindən geniş tədbirlər planı hazırlanmış və icrasına başlanılmışdır. Rayonda yaxın gələcəkdə tarixi abidələrin, xalqımızın keçmişindən xəbər verən tarixi qalaların bərpası və konservasiyası layihələrinin hazırlanması, Lahıc və Basqal Tarix və Mədəniyyət qoruqlarının fəaliyyətinin canlandırılması, xalq tətbiqi sənət yarmarkalarının təşkil olunması, sənətkarlıq bayramlarının qeyd olunması, "İsmayıllı Sənətkarlıq diyarıdır" mövzusunda məktəblilər arasında inşa yazı müsabiqələrinin keçirilməsi və digər tədbirlər nəzərdə tutulmuşdur.

Həmçinin Lahıcda fəaliyyət göstərən xalq tətbiqi sənət ustalarının emalatxanalarına, Lahıc Tarix-Diyarşünaslıq muzeylərinə ekskursiyalar təşkil olunacaqdır.

Mən bu istiqamətdə həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin hamısını sadalamaq fikrində deyiləm. Ancaq çox istərdim ki, "Mədəni-maarif" jurnalının dəyərli oxucularının bizim bu qədim yaşayış məskənləri haqqında məlumatları zəngin olsun.

***

Əsrarəngiz təbiətə, qədim tarix və mədəniyyətə, yüksək qonaqpərvərliyə malik xüsusiyyətləri özündə birləşdirən Basqal qəsəbəsi xalq sənətkarlığını qoruyub saxlayan və bu günə qədər yaşadan sənətkarlıq mərkəzlərindəndir. Basqal vahid memarlıq-layihə prinsipləri əsasında salınmışdır. Bu prinsipə əsasən əsas memarlıq-plan quruluşuna daxil olan baş küçə özündə hər birinin özünəməxsus tarixi və xüsusiyyətləri olan neçə-neçə ictimai, dini, mədəni-məişət, ticarət və yaşayış binalarını, məhəllə, kürəbənd, bulaq və s. birləşdirirdi.

Lakin Basqalı məşhurlaşdıran onun əsrlər boyu Şirvanın, bütövlükdə Azərbaycanın çox mühüm ipək məmulatı istehsalı mərkəzlərindən biri olmasıdır. XII-XIII yüzilliklərdə Şirvan şəhərləri, xüsusilə də Şamaxı özünün və ətraf yaşayış məntəqələrində istehsal olunan ipək məmulatları ilə şöhrət qazanmışdır. Müxtəlif çeşidli kəlağayılar, qanovuz, kişmir, tafta, darayı, mov, cecim, yorğanüzü və s. parçaları xarici bazarlarda və beynəlxalq sərgilərdə yüksək



qiymətləndirilib. Kəlağayı istehsalı xüsusilə fərqlənib. Təbriz, Gəncə, Şamaxı, Şəki, Ordubad kimi şəhərlərlə yanaşı Basqalda da yüksək keyfiyyətli kəlağayılar hazırlanıb. Mənbələrin məlumatına görə, hələ orta əsrlərdən Gəncə və Basqal kəlağayıları xarici ölkələrə ixrac olunub.

**1293-cü ildə Azərbaycanda olmuş venesiyalı səyyah Marko Polo yazırdı: "Burada şəhər və qalalar olduqca çoxdur, çoxlu ipək var. Belə gözəl parçaları dünyanın heç bir yerində görməzsən."**

Əslində Basqaldan olan ustalar, tacirlər və iş adamları sonralar Azərbaycanın, Qafqazın və Orta Asiyanın bir çox şəhərlərində də ipəkçiliyin inkişaf etdirilməsinin təşəbbüsçüsü və icraçısı olmuşlar.

XVII, XVIII və XIX əsrlərdə ümumdünya bazarlarında Basqal kəlağayıları öz dəyərini və nüfuzunu layiqincə nümayiş etdirirdi. Basqal ustalarının istehsal etdikləri ipək məmulatı məhsulları Azərbaycan sərhədlərini aşaraq Hindistan, Orta Asiya, Rusiya, İtaliya, İngiltərə, Fransa və digər ölkələrə qədər gedib çıxmışdır. 1862-ci ildə Azərbaycan ilk dəfə Londonda keçirilən Ümumdünya sərgisində iştirak etmişdir. Həmin sərgidə Basqaldan olan toxucu Nəsir Abdüləziz oğlu nümayiş etdirdiyi nəfis kəlağayı və zərif qanovuz parçaya görə gümüş medal və diplomla mükafatlandırılmışdır.

Basqal sənətkarları tərəfindən toxunan kəlağayılar yaşa və zövqə uyğun olaraq müxtəlif rənglərlə boyanırdı. "Heyratı", "Hələbi", "Gülvəngi", "Qonşuçatladan", "Bağdadı", "Saçaqlı", "Şamaxı" və s. kimi əlvan kəlağayılar əsas yer tuturdu. Qadın baş geyimləri içərisində kustar üsulla toxunan örpəklər də məxsusi olaraq hazırlanırdı. Şirvanda, eləcə də Basqalda belə örpəklərin "Sərəndaz", "Naz-nazı", "Bəlalə", "Xaralı", "Alafa", "Bənarə" və s. növlərindən



geniş istifadə olunurdu.

Ağ, boz, qara, göy, palıdı rəngli bahalı və ucuz ipək parça materialından hazırlanan çadra və ya çarşablar Ön Asiya, Ərəb ölkələri və Azərbaycanda şəhərli geyimi kimi mövcud olmuşdur. Bu baş geyim növü Şamaxı, Şəki, Gəncə, Şuşa kimi şəhərlərlə yanaşı, Basqal və Mücü sənət istehsal mərkəzlərində hazırlanmışdır.

İpəkçiliyə müasir zəmanədə marağın olmasının əsas səbəbləri təbii ipəyə olan tələbatın günü-gündən artması və dünya bazarlarında ipəyin qiymətinin yüksəlməsidir. Məsələnin əhəmiyyətini uzaqgörənliklə qiymətləndirən ümummilli lider Heydər Əliyev, ölkə Prezidenti cənab İlham Əliyev ipəkçilik sahəsinin müxtəlif yollarla inkişaf etdirilməsi barədə tövsiyələr vermişdir.

Buna uyğun olaraq "İnkişaf" Elmi Mərkəzi yerli icra hakimiyyətinin dəstəyi və Yaponiya hökumətinin yardımı vasitəsilə bir neçə il bundan əvvəl Basqal İpək Mərkəzini təşkil etmişlər. Mərkəzdə kəlağayıların boyanması və naxışlanması işi aparılır. Mərkəzdə Basqal kəlağayısının tarixindən bəhs edən muzey təşkil olunmuşdur.

***

Lahıc Bakıdan 220 km şimal-qərbdə Böyük Qafqaz sıra dağlarının qoynuna sığınmış füsunkar bir məkandır. Qədimliyi və unikallığı ilə bütün dünyada məşhur olan bu yaşayış məntəqəsinin adına IX-X əsrlərdə yaşamış ərəb tarixçisi əl-Təbiətinin əsərlərində təsadüf edə bilərik.

Lahıc kəndinin yaranması barədə el arasında çox əfsanələr dolaşır. Onların həqiqətə nə dərəcədə yaxın olduğunu söyləmək çətindir. Bəlli olan budur ki, dağların yaxası ilə uzandıqca-uzanıb sərt sıldırımları, dolanbacları, heybətli qayaları ilə hər an təhlükə vəd edən narahat yollarla bu kəndə doğru irəlilədikcə, Lahıca yetişib çay daşları döşənmiş dar küçələrlə addımladıqca, yerli sakinlərin adına "gəl-gəl" dedikləri incə bəzəkli mis satıl dolusu sərin bulaq suyundan başına çəkib ciyərinin atəşini söndürdükcə hiss edirsən ki, möcüzələr diyarına düşmüsən.

Misgər dükanlarından eşidilən çəkic cingiltisinin, evlərin açıq pəncərələrindən bayıra yayılan cəhrə səsi ilə yaratdığı harmoniya, xırda çay daşlarından tikilmiş pəncərəsi şəbəkəli, kiçik külafirəngli evlərin qədim görkəmi, evinin ala qapısında əyləşib corab toxuyan bu ixtiyar nənənin əlvan iplərlə yaratdığı naxışlar...

Buraya birinci dəfə gələnlər Lahıc haqqında əvvəllər oxuyub eşitsələr də, yəqin ki, üstündə addımladığı kənd yolunun sal daşları ilə örtülmüş saxsı kanalizasiya borularından bixəbərdirlər. Bu boruları kimin nə vaxt çəkdiyini yerli sakinlər belə dürüst söyləyə bilməyəcək. Ehtimallara görə, tarixi 3 min ildən də əvvəllərə gedən bu möcüzəli kanalizasiya sisteminin haradan başlayıb, harada tamamlandığı, hansı texniki üsul əsasında işlədiyi hələ də sirr olaraq qalır.

Qədim şəhərsalma mədəniyyətinə uyğun tikilmiş Lahıc sanki öz-özündən arınıb-durulur. Burada yaşayanlar gözlərini açıb belə görüblər. Onların əcdadları da... Görünür, Şərq dünyagörüşündə 7 rəqəminin müqəddəsliyindən irəli gələrək Lahıc da yeddi məhəlləyə bölünüb. Hər məhəllənin öz məscidi, öz hamamı, öz meydanı və öz bulağı.

Verilən məlumatlara görə, hazırda Lahıcda 2 minə yaxın sakin yaşayır. Həyat tərzi, adət-ənənələr, milli mədəniyyət, doğma dil olduğu kimi qorunmaqdadır. Əgər görməsəniz, inanmazsınız: cəmi 80 hektarlıq ərazidə yerləşən bu yaşayış məskəni özü boyda muzeyi xatırladır.

**Lahıcda nə az, nə çox, düz 93 tarixi abidə var. Bu abidələrin əhatəsində zaman məfhumu sənin üçün öz əhəmiyyətini itirir. Hətta tarixin çağdaş dövrlərində inşa edilmiş tikililər də, artıq yaşı 120-ni adlayan orta məktəb binası tək qədimləşir, tarixləşir, görkəmli Azərbaycan klassiki Əfzələddin Xəqani Şirvaninin atası Əlinin burada yerləşən məzarı ilə az qala həmyaşıd olur. Və bütün bunlardan sonra necə deməyəsən ki, Lahıc insanın bir günlük də olsa, vaxta qalib gəldiyi məkandır...**

**● Y. ARAPLI**